UOT 75 **TƏSVİRİ SƏNƏT**

**Ziyadxan Əliyev**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**Əməkdar incəsənət xadimi**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: ziyadxan_ali@mail.ru**

# AĞA MEHDİYEVİN YARADICILIĞI ƏNƏNƏ VƏ MÜASİRLİYİN QOVŞAĞI KONTEKSTİNDƏ

**Xülasə:** XX əsr Azərbaycan rəngkarlığının inkişaf yolları üslub axtarışları baxımından çox rəngarəng olmuşdur. Müxtəlif nəsillərin nümayəndələri sovet dönəmində aparıcı hesab olunan "sosialist realizmi" bədii prinsipinə bağlılığını nümayiş etdirsələr də onların arasında milli mənəvi qaynaqlara müraciət edənlər də olmuşdur. Əgər fərqli yolla gedənlərə 30-cu illərdə dolayısı təzyiqlər göstərilirdisə, repressiya dövründən sonra belələrinə - gerçəkliyə özünəməxsus baxış sərgiləyənləri təhlükə gözləmirdi. Bununla belə, yeni həyata klassik bədii prinsiplər vasitəsilə münasibət göstərənlər o qədər də çox deyildi. Onlardan biri də rəssam Ağa Mehdiyev (1920-2003) olmuşdur. Bu məqalə də onun bu istiqamətdə apardığı axtarışlara həsr olunmuşdur.

Rəssam bütün yaradıcılığı boyu yaratdığı müxtəlif janrlı əsərlərində klassik miniatürdən yaradıcılıqla faydalanmasına görə müasirlərindən fərqlənmişdir. Başqa sözlə desək o, müxtəlif biçimli lövhələrində miniatür estetikasının bədii ifadə imkanlarının geniş olduğunu təsdiqləmişdir.

**Açar sözlər**: təsviri sənət, realizm, ənənə, estetika, stilizə, ümumiləşdirmə, fərdilik, bütövlük.

Ötən əsrin əvvəllərində ilk nümunələri yaranan Azərbaycan rəngkarlığının estetikasında qədim bədii irsə müraciətin ilk nəticələri onların yaradıcıları üçün uğur kimi dəyərləndirilsə də, bu bədii prosesin sovet dövrünü əhatə edən mərhələsinə nəzarət edən Kreml ideoloqlarının xoşuna gəlməmişdi. Buna baxmayaraq, 20 - 30-cu illərin Azərbaycan rəssamlığı Ələkbər Rzaquliyev, Salam Salamzadə, Qəzənfər Xalıqov, Adil Qazıyev, Rüstəm Mustafayev və b. ərsəyə gətirdikləri miniatür üslublu rəngkarlıq əsərlərinin sayəsində özünəməxsus bədii xüsusiyyətləri ilə tarixə qovuşmuş və yadda qalmışdır. Düzdür, həmin gənc yaradıcıların bir çoxu repressiya illərinə təsadüf edən həmin dövrdə təhlükəyə məruz qalmamaq xatirinə milli ənənələrdən uzaqlaşsalar da, Ələkbər Rzaquliyev sürgünə və həbslərə baxmayaraq miniatür estetikasına sadiqliyini daima nümayiş

etdirmişdi. Yeri gəlmişkən deyək ki, 50-ci illərin sonunda bəraət alan rəssam, Bakıya qayıtdıqdan sonra yaratdığı "Köhnə Bakı" linoqravürlər silsiləsində məhz miniatürün bədii prinsiplərinə müraciətlə bənzərsiz qrafika nümunələri yaratmağa nail olmuşdu.

Odur ki, repressiya təhlükəsinin əksər rəssamların başı üzərində "Domokl qılıncı"na çevrildiyi illərdə Bakı Rəssamlıq Texnikumunda təhsilini başa vuran Ağa Mehdiyevin (1920-2003) ilk yaradıcılıq nümunələrində "sosialist realizmi" bədii prinsipinin estetikası qabarıq görünürdü. Bu cür bədii şərh, əslində, onun müraciət etdiyi mövzulara müvafiq idi. Digər tərəfdən "Komsomola qəbul", "Suvorovçu tətil zamanı", "Qatır Məmmədin dəstəsi", "Savadlılar ailəsi", "Köhnə neft mədənlərində", "Qudok" qəzetinin redaksiyasında" və "Balaca çoban" kimi süjetli tabloların təqdimatı onun yaradıcısından daha çox realist-gerçəkçi bədii yanaşma tələb edirdi. Onun 40-50-ci illər yaradıcılığının demək olar ki, əvvəlki ruhda davam etdirilməsinin kökündə, həmin vaxtlarda sovet rəssamlığı üçün səciyyəvi olan "soyuq realizm"ə və "quru naturalizm"ə sadiqliyin təqdir olunması dururdu. Yalnız əllinci illərin sonunda gənc T.Salahovun novatorluq nümayiş etdirməsi və rəssamlıq məkanına "Sərt üslub"u gətirməsi SSRİ məkanında duyulası canlanma yaratdı desək, həqiqəti söyləmiş olarıq. Bütün bunlar və A.Mehdiyevin 60-cı ilin lap əvvəlində dost Türkiyədə yaradıcılıq ezamiyyətində olması, onun dünyaya baxışında köklü dəyişikliyin baş verməsini şərtləndirdi. Rəssamın sonrakı dövr yaradıcılığına nəzər salmaqla bunun bilavasitə onun əsərlərində qədim miniatür ənənələrinin yer alması ilə ifadə olunduğunu görə bilərik. Bura rəssamın Azərbaycanın el sənəti mərkəzlərindən sayılan Lahıcda dünyaya göz açdığını da nəzərə alsaq, onun milli bədii qaynaqlarına tapınmasını təbii saymaq olar.

Etiraf edək ki, zamanında A.Mehdiyevin yaradıcılığında duyulası dəyişikliyin müşahidə olunmasını onun milli bədii ənənələrə dönüşü kimi yox, Qərb rəssamlığına meyl etmək kimi qəbul edənlər az deyildi. Bir daha xatırladaq ki, eyni ittihamlar 30-cu illərdə milli miniatürlərdən faydalanan gənc Azərbaycan rəssamlarına yönəli də söylənilmişdi. Odur ki, A.Mehdiyevin tutduğu yoldan çəkilməməsini, seçiminə sona qədər sadiq qalmasını ilk növbədə onun həyata keçirdiklərinə inamının ifadəsi olmuşdur.

Onun 1960 - 2000-ci illəri əhatə edən yaradıcılığını əhatə edən zəngin irsində bədii tutum almış ən müxtəlif mövzulu əsərlərin estetikasında qabarıq görünən dekorativ-şərti və rəmzi-lakonik bədii şərhin klassik miniatürlərlə səsləşməsi, həm də rəssamın əski prinsipləri müasirliyə bələmək istəyi duyulmaqdadır. Müəllifin bir çox əsərlərində həm miniatür ənənələrinə müasir yanaşması, həm də onları yaradıcılıqla təfsir etməsi onun yaradıcılıq üslubunu səciyyələndirən xüsusiyyətlərdir. "Bahar" (1964), "Rəfiqələr" (1964), "Gənclik" (1970), "Toran-

lıq” (1973), “Eyvanda” (1975), “Çörək bişirənlər” (1975), “Güləş” (1977), “Romans” (1978), “Lahıclı qadın” (1980), “Dağlarda” (1980), “Analıq” (1985), “Günəşli gün” (1986), “Gənclik (Səhər)” (1987), “El bayramı” (1996) və s. tablolarında vurğuladığımız estetikanı müşahidə etmək mümkündür.

“El bayramı” adlı çoxfiqurlu tablosunda bir ailəni interyer daxilində Novruz süfrəsi ətrafına toplayan rəssam, bu qələbəlikdə ifadə olunan təbiiliyi və mehribanlığı ifadə etməyə çalışmışdır. Müxtəlif pozalı bu fiqurların təqdimatında miniatür estetikasına müraciət etməklə, dekorativliyi qabarıq duyulan bədii şərhin bütövlüyü əldə olunmuşdur. Tablonun nikbin rənglərin “ram edilmiş” tonlarından yaranmış koloritinin məna-məzmun tutumunun gözoxşayan alınmasına təsiri duyulandır.

Rəssamın elə həmin dövrdə yaradılmış “Güləş” tablosunda da çoxfiqurlu kompozisiyanın estetikasında da miniatür bədii prinsiplərindən istifadə olunmuşdur. Kvadrat formatlı kompozisiyada iki güləşçinin gərgin mübarizəsini çoxsaylı seyrçilərlə dövrələyən rəssam, onların çöhrələrinə hakim kəsilmiş hiss-həyəcanla yarışmanın ruhunu ifadə etməyə nail olmuşdur. Əsərin bədii həllində rənglərin gücündən məntiqlə istifadə edən Ağa Mehdiyev, “Yaylaqda” əsərində olduğu kimi burada da onların ümumi gücünün uğurla kompozisiyanın təsirliliyinin əldə olunmasına yönəldilməsi görünəndir. Qənaətimizcə, müəllifin fiqurların ifadəliliyinin əldə olunması istiqamətində nail olduğu cəlbedicilikdə qədim miniatür ənənələri ilə səsləşən məqamlar qabarıqdır.

Ağa Mehdiyevin “Romans” lövhəsində kompozisiyanın təsir gücünün ifadəsində siluetə etibar edilməsi daha aydın duyulmaqdadır. Əvvəlki iki əsərdən fərqli olaraq burada məqsədli şəkildə şaquli formatdan istifadə edən rəssam, bununla da kompozisiyanın əsas məna-məzmun daşıyıcısı olan müğənninin tablonun dominantına çevrilməsini şərtləndirmişdir. Bunun üçün o, həm də rənglərdən uğurla istifadə etmişdir. Soyuq tünd rənglərlə işlənmiş musiqiçini və fortepianonu isti çalarlarla işlənmiş müğənninin təsviri üçün fon-yerlik seçən Ağa Mehdiyev bununla da yaranmış təzadla kompozisiyanın cəlbediciliyinə nail olmuşdur. Rəssamın kompozisiyanı təşkil edən ayrıntılara verdiyi ifadəlilik isə onun qədim miniatür estetikasından yaradıcılıqla istifadə etməsinin göstəricisidir.

Müəllifin miniatür estetikasından məntiqlə istifadəsini onun digər janrlarda yaratdığı əsərlərin timsalında da görmək mümkündür. Bu mənada onun portret janrında işlədiyi “Lahıclı qadın” əsəri diqqət çəkir. Müəllif bu dəfə də rənglərin dekorativliyindən istifadə etməklə yanaşı, bunu həm də onların çalar təzadı ilə əlaqələndirməklə, bütünlükdə, ümumi kompozisiyanın cəlbediciliyini əldə etmişdir. Şux rənglərin təsir gücünün bərabərləşdirilməsi nəticəsində əldə olunan koloritdə ilk baxışda xaotik görünən səthlərin ahəngdarlığı duyulmaqdadır. Bunu şərtləndirən başlıca səbəb həmin səthlərin bir-birini tamamlaması, kompozisiya-

nın bütövlüyünə xidmət etməsidir.

Format etibarilə "Lahıclı qadın"ı xatırladan "Analıq" əsərində də rəssam rəng səthlərinin təzadından uğurla istifadə etməklə, kompozisiyanın əsas mə- na-məzmun daşıyıcısı olan ana ilə uşağın təsvirini tablonun dominantına çevirə bilmişdir. Bu təzadı şərtləndirən səthlər bəzən düz, çox vaxt isə ritmli əyrilərlə ifadə olunduğundan, ana məhəbbətini ifadə edən rəng-yaxı axıcılığında əsərin ideyasını daha da qabarıqlaşdıran bədii məqamlar aydın duyulmaqdadır. Rəssamın fiqurun rəngi ilə onu əyaniləşdirən fon-yerliyin rəngləri arasında tapdığı təzadı görüntünün ümumi tutumunun cəlbediciliyinə yönəltməsi sayəsində əldə olunan təsirliliyi müəllifin məqsədinə çatmasının görüntüsü saymaq olar.

Bütün yaradıcılığı boyu düşüncələrini daha çox qadın obrazları vasitəsilə ifadə etməyə üstünlük verən Ağa Mehdiyev, yuxarıda şərh olunan əsərdən iki il sonra ərsəyə gətirdiyi "Gənclik (Səhər)" tablosunda da bədii vasitə kimi miniatürlərdə tez-tez tətbiq olunan təzaddan uğurla istifadə etmişdir. Otaqdakı güzgü qarşısında saçlarını hörən gənc qızın daşıdığı hisslərin qabarıqlığını əldə etmək üçün onun belinə qədərki təsvirini eyvana açılan qapı qarşısında təqdim edən rəssam, bədənin qalan aşağı hissəsini döşəmənin kölgəsinə qovuşdurmaqla, yuxarı hissənin - gənc qızın nikbinliyə bələnmiş portretinin məqsədinə müvafiq tutumda cəlbedici görünməsinə nail olmuşdur.

Çox vaxt miniatür estetikasının müasir mövzuları bədiiləşdirmək gücün- də olmadığını israr edənlərin münasibətlərində yanıldıqlarını Ağa Mehdiyev "Günəşli gün" tablosunda sübut edə bilmişdir. Kvadrat formatlı kompozisiyanı məişət mövzulu süjetlə tərtib edən müəllif, ənənəsinə sadiq qalmaqla, rəng və işıq-kölgə təzadından məntiqlə istifadə etmiş və yuyulmuş paltarları ipdən asan qadınların cəlbedici obrazlarını yaratmışdır. Əsərin bədii həllində rənglərin ovqat yaratmaq gücündən ustalıqla istifadə edən müəllifin bununla həm də kompozisiyanın bütövlüyünə nail olmaqla, miniatür estetikası ənənələrinə dərindən bələdliyini əks etdirmişdir.

Ağa Mehdiyev rəngkarlığında diqqətçəkən məqamlardan biri də onun mənzərə və natürmort janrlarında çəkdiyi əsərlərdə miniatür ənənələrini uğurla tətbiq edə bilməsidir. Bu mənada onun "Bürkü" (1977), "İsti gün" (1977), "Dağlar" (1977), "Abşeron" (1979), "Dağlarda" (1980), "Qayalar" (1980), "Payız" (1981), "Natürmort" (1980), "Çaydanla natürmort" (1984) və s. mənzərə və natürmortlarının adını çəkmək olar.

"Bürkü" əsərində kəndin yay mənzərəsinə göz qoyan rəssam, qızılı qum üzərinə səpələnmiş yastı damlı evlərin günəş istisinə bələnmiş görkəmində üzə çıxardığı gözəllik qaynaqları ilə kompozisiyanın gözoxşayanlığına nail olmuşdur. Bu cəlbediciliyin əldə olunmasında rəng təzadlarından uğurla istifadənin müsbət nəticələrini görmək mümkündür. Əsərin kompozisiya həllində insan təs-

virlərindən imtina edən müəllif bununla da məkanda yaşanan bürkünün inandırıcılığını əldə etmişdir.

Rəssamın "Dağlarda" tablosunda da rəng təzadlarından uğurla istifadə olunmuşdur. Möhtəşəm dağların arasında qərarlaşan evlərin günəş işığına bələnməsindən yaranmış kompozisiya mərkəzinin daha da qabarıqlığına tikililərin başı üzərindən ucalan dağların işıq-kölgə təzadı ilə ifadə olunmuş cəlbedici görkəmi səbəb olmuşdur desək, yanılmarıq. Dağ səthinin isti və soyuq rəng çalarlarından "boylanan" tutumunda hifz olunan əzəmətin bütünlükdə tablonun təsirliliyini şərtləndirməsi də müəllif niyyətinin gerçəkləşdiyindən xəbər verir.

Yuxarıda şərh olunan mənzərələrdən iki il sonra ərsəyə gətirilən "Abşeron" tablosunda isə rəssam duyulası sərtliyi ilə yadda qalan bu məkanı səciyyələndirən xüsusiyyətləri yaddaqalan biçimdə təqdim edə bilmişdir. Dənizə yaxın ərazidə yerləşən Abşeron kəndinin günorta mənzərəsinə bədii görkəm verən müəllif, yayın bu yerlərə bəxş etdiyi təbii gözəlliyi miniatür estetikasına bələməklə, evlərdə, daş hasarlarda, ağaclarda hifz olunan gözəllik qaynaqlarının ümumiləşdirilmiş görkəmini yaratmışdır.

"İsti gün" əsərində də rəssam görüntüyə gətirdiyi tikililərin yay görkəmində hifz olunan estetik qaynaqları rəng və işıq-kölgə təzadları vasitəsilə bədiiləşdirmişdir. Qürub mənzərəsinin isti rəng çalarlarından yaranmış bədii tutumunda miniatür bədii prinsiplərindən uğurlu istifadənin sayəsində, tablonun ovqatyaradıcı görkəm alması görünəndir.

Digər janrlarla müqayisədə Ağa Mehdiyevin yaradıcılığında natürmortlar az olsa da, elə onların timsalında rəssamın "cansız əşya"lara bədii münasibətində gördüklərinə cəlbedicilik bəxş etmək istəyi qabarıq duyulmaqdadır. Bunu onun az əşyalı "Çaydanla natürmort"u da təsdiqləyir. Əşyaları rəng təzadları ilə bir qədər şərti-dekorativ tutuma bələyən müəllifin bununla onların daşıdığı gözəlliyi vurğulamaq istəyi görünməkdədir.

Bütünlükdə, Ağa Mehdiyevin "Sosialist realizmi" bədii prinsipinin hakim olduğu təsviri sənət məkanında milli bədii ənənələrə tapınmaqla, qədim miniatür üslub kimi çoxqatlı estetik yük daşıyıcısının yeni ifadə imkanlarını üzə çıxarmasını müəllif cəsarəti ilə yanaşı, həm də fərdi sənətkar "mən"inin təsdiqi baxımından önəmli hal hesab etmək olar.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan incəsənəti (monoqrafiya). "İşıq", Bakı- 1992.344 səh.
2. K.Kərimov. Azərbaycan miniatürləri."İşıq",Bakı-1980. 220 səh.
3. Дж. Гасанзаде. Тебризская миниатюрная живопись. "OSKAR", Баку-2000.592 стр.
4. Каджар Ч. Искусство Азербайджана. "Оскар", Баку-2010,348 стр.

**Зиядхан Алхан оглы Алиев**

## ТВОРЧЕСТВО АГА МЕХТИЕВА В КОНТЕКСТЕ СИНТЕЗА ТРАДИЦИИ И СОВРЕМЕННОСТИ

**Резюме:** С точки зрения стилевых поисков,путь развития азербайджанской живописи XX века был очень разнообразен. Хотя большинство художников разных поколений придерживались художественного принципа «социалистического реализма», который в советское время считался ведущим, однако среди них были и те, кто обращался к национальным духовным истокам. Если в 30-е годы прошлого века приверженцы второго пути подвергались косвенному давлению, то после периода репрессий ситуация существенно изменилась в лучшую сторону.

Несмотря на это, желающих вдохнуть новую жизнь в классические художественные принципы было немного.Данная статья посвящена одному из них - художнику Ага Мехтиеву (1920-2003), чья жизнь была поглощена-художественным исканиям в этом направлении.

Ага Мехтиевна протяжении всего своего творчества создал произведения разных жанров и сумел выделиться среди коллег как мастер, возродивший классический стиль миниатюры. Разнообразие его работ подтверждает, что диапазон выражения эстетики миниатюры очень широк.

**Ключевые слова**: изобразительное искусство, реализм, традиция, эстетика, стилизация, обобщение, индивидуальность, целостность.

**Ziyadkhan Alkhan oglu Aliyev**

## AGA MEHDIYEV`S CREATIVITY IN THE CONTEXT OF TRADITION AND MODERNITY

**Summary:** The stage of development of Azerbaijani painting in the twentieth century was very diverse in terms of style search. Although artists of different generations were committed to the artistic principle of “Socialist realism”, which was considered the leading one in the Soviet era, among them there were those who turned to national spiritual sources.

If in the 1930s those who followed this different path were indirectly persecuted, after the period of repression those who had a different artistic approach to reality did not face so many obstacles.

Nevertheless, those who wanted to breathe new life into classical artistic principles were in the minority. One of them was the painter Aga Mehdiyev (1920-2003). This article is about his artistic research in this direction.

The artist, who created works in various genres throughout his career, waschosen among his colleagues as a creator who breathed new life into the ancientminiature style. He confirmed that the language of expression of miniature aesthetics is very wide with his paintings in various genres.

**Key words:** fine arts, realism, tradition, aesthetics, stylized, generalization,individuality, integrity.










**Məqalənin redaksiyaya daxil olma tarixi: 11. 11. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**